

# ŞƏRQ qapısı

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 196 (24.333)

*24 oktyabr 2023-cü il, çərşənbə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.gov.az

Qiymәti 30 qәpik


## Kimya sənayesinin inkişafı başlıca prioritet sahə kimi

### *Prezident İlham Əliyev Sumqayıt Kimya Sənaye Parkında yeni müəssisələrin açılış və təməlqoyma mərasimlərində iştirak edib*



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 23-də Sumqayıtda olub.

Dövlətimizin başçısı əvvəlcə Sumqayıt Kimya Sənaye Parkında yeni istehsal müəssisələrinin açılış və təməlqoyma mərasimlərində iştirak edib.

Qeyd edək ki, Sumqayıt Kimya Sənaye Parkı Azərbaycan Prezidentinin 2011-ci il 21 dekabr tarixli Fərmanı ilə yaradılıb. Bu, Azərbaycanda yaradılmış ilk, Cənubi Qafqazda isə ən böyük sənaye parkıdır.

Azərbaycanın iqtisadiyyat naziri Mikayıl Cabbarov dövlətimizin başçısına Sumqayıt Kimya Sənaye Parkında görülən işlər barədə məlumat verdi.

Bildirildi ki, hazırda ərazisi 583,5 hektar təşkil edən sənaye parkında neft-kimya və digər prioritet sənaye sahələri üzrə rəqabətqabiliyyətli məhsulların istehsalı və emalı müəssisələri fəaliyyət göstərir. Parkda ümumi investisiyaların həcmi, təqribən, 5,8 milyard manata yaxın olan 38 sahibkarlıq subyektinə rezidentlik statusu verilib. İndiyədək sənaye parkına rezidentlər tərəfindən 5,4 milyard manatdan çox investisiya yatırılıb. Qeydiyyata alınmış 38 rezidentdən artıq 20-si fəaliyyət göstərir. Bu gün “Azərbaycan Vanhong Ceramics Co.” MMC, “Novus Plastica” MMC və “UPI – Universal Packing Industry” QSC-nin açılışı ilə Sumqayıt Kimya Sənaye Parkında fəaliyyət göstərən müəssisələrin sayı 23-ə çatır.

İndiyədək Sumqayıt Kimya Sənaye Parkının rezidentləri tərəfindən, ümumilikdə, 9,5 milyard manatlıq məhsul satışı həyata keçirilib ki, onun da 3,3 milyard manatdan çox hissəsi – təqribən, 35 faizi ixracın payına düşür. Sənaye parkında 2023-cü ilin 9 ayında 2,1 milyard manatlıq məhsul istehsal edilib ki, bunun da 674,4 milyon manatlıq hissəsi ixrac olunub.

Qeyd edildi ki, hazırda burada 6600-dən çox insan daimi işlə təmin olunub. Bundan əlavə, mövcud layihələr üzrə sənaye parkına əlavə olaraq 394 milyon manatdan artıq investisiyanın yatırılması, 2000-dən çox daimi iş yerinin yaradılması nəzərdə tutulur.

Parkda istehsal olunan məhsullar Türkiyə, Rusiya, Ukrayna, Belarus, Çin, Tayvan, Bolqarıstan, Rumıniya, Polşa, Niderland, İtaliya, Makedoniya, Litva, Avstriya, Estoniya, Danimarka, Qazaxıstan, Özbəkistan, Türkmənistan, Tacikistan, Gürcüstan, Qırğızıstan, Braziliya, Misir, Birləşmiş Ərəb Əmirlikləri, Livan, İraq, Yaponiya, Amerika Birləşmiş Ştatları, Kanada və digər ölkələrə ixrac olunub.

***

Prezident İlham Əliyev əvvəlcə parkda “Çinar-Servis” İstehsal-kommersiya firmasının Texniki qazların istehsalı müəssisəsinin təməlqoyma mərasimində iştirak etdi.

Məlumat verildi ki, “Çinar-Servis” 2022-ci ilin mayında Sumqayıt Kimya Sənaye Parkının rezidenti kimi qeydiyyatdan keçib. Şirkət sənaye parkının 2 hektara yaxın ərazisində sıxılmış azot, oksigen, arqon və maye helium qaz məhsullarının istehsalı ilə məşğul olacaq.

İnvestisiya həcmi 13,3 milyon manat olan layihə çərçivəsində 70 nəfərin daimi işlə təmin edilməsi nəzərdə tutulur. İstehsal olunan məhsulların daxili bazarda satılması ilə yanaşı, xarici ölkələrə də ixracı planlaşdırılır. “Çinar-Servis” tərəfindən istehsal olunan sənaye qazları ölkəmizdə bu məhsullara tələbatı ödəməklə yanaşı, Gürcüstana, Türkiyəyə, Rusiyaya da ixrac ediləcək.



Dövlətimizin başçısı istehsal müəssisəsinin təməlini qoydu.

***

Sumqayıt Kimya Sənaye Parkının rezidentlərindən biri də “Novus Plastica” Məhdud Məsuliyyətli Cəmiyyətdir. Prezident İlham Əliyev “Novus Plastica” MMC-nin Polimer qatqıları istehsalı müəssisəsinin açılışını etdi.

Bildirildi ki, “Novus Plastica” MMC-yə 2020-ci ilin avqustunda Sumqayıt Kimya Sənaye Parkının rezidenti statusu verilib. Sənaye parkının 3,5 hektar ərazisində inşa edilmiş müəssisədə iki növ məhsulun – polietilen borular üçün qara karbon konsentrat qatqısının və sənaye sahəsində qablaşdırmada istifadə edilən polietilen örtüklərin istehsalı həyata keçirilir. İtaliyanın qabaqcıl texnologiyalarının tətbiqi ilə istehsal olunan məhsulların daxili bazarda satışı ilə yanaşı, Türkiyəyə, MDB ölkələrinə ixracı da planlaşdırılır. İnvestisiya kapitalı 12,1 milyon manatdan çox olan müəssisədə 50-dək insan daimi işlə təmin ediləcək.

Qeyd edək ki, “Novus Plastica” MMC tərəfindən “SOCAR Polymer” MMC-nin və “Azərikimya” İstehsalat Birliyinin məhsullarından xammal kimi istifadə olunacaq.

Dövlətimizin başçısı müəssisəni işə saldı.

***

Sonra Prezident İlham Əliyev “Universal Qablaşdırma Sənaye” Qapalı Səhmdar Cəmiyyətinin Qablaşdırma məhsulları istehsalı müəssisəsinin açılışında iştirak etdi.



Diqqətə çatdırıldı ki, sənaye parkının bir hektar ərazisində inşa edilmiş müəssisədə qablaşdırmada istifadə olunan qofro karton, fayl və digər məhsullar istehsal ediləcək. İtaliya və Çin texnologiyalarının tətbiq edildiyi müəssisədə 20 çeşiddə məhsul istehsal olunacaq. Ümumi investisiya dəyəri 4,8 milyon manat olan müəssisədə ilkin mərhələdə 50 nəfər daimi işlə təmin ediləcək. Növbəti mərhələdə isə işçilərin sayının 65 nəfərə çatdırılması nəzərdə tutulur.

Dövlətimizin başçısı müəssisəni işə saldı.

***

Daha sonra “Azərbaycan Vanhong Ceramics Co.” MMC-nin Keramik plitələr istehsalı müəssisəsinin açılışı oldu.

Prezident İlham Əliyev müəssisədə yaradılan şəraitlə tanış oldu.

Məlumat verildi ki, sənaye parkının 20 hektardan çox ərazisində Çinin qabaqcıl texnologiyalarının tətbiqi ilə yüksəkkeyfiyyətli, müxtəlif ölçülərdə keramik plitələrin istehsalı həyata keçiriləcək. Yüz faiz Çin kapitallı müəssisə üçün investisiya dəyəri 40 milyon ABŞ dolları, işçi sayı 400 nəfər nəzərdə tutulsa da, hazırda müəssisəyə 50 milyon ABŞ dolları məbləğində investisiya yatırılıb və 484 nəfər işlə təmin olunub. İllik istehsal gücü 18 milyon kvadratmetr olan müəssisənin məhsulları daxili bazarda satılmaqla yanaşı, region və MDB ölkələrinə ixrac olunacaq.

Qeyd edək ki, “Vanhong Ceramics”in hazırda Çində 5 zavodu var, həmçinin dünyanın 5 ölkəsində müəssisələri fəaliyyət göstərir.

“Azərbaycan Vanhong Ceramics Co.” MMC-nin baş direktoru **Ciyi Vanq** dedi: – Möhtərəm cənab Prezident, “Azərbaycan Vanhong Ceramics Co.” MMC-nin Keramik plitələr istehsalı müəssisəsinin açılış mərasimində iştirakınızla bizi qürurlandırdığınız üçün Sizə minnətdarlığımı bildirirəm.

**Prezident İlham Əliyev:** – Azərbaycana bu qədər vəsait qoyursunuz, 81 milyon manat investisiya çox böyük rəqəmdir. Bu investisiyalar şirkətiniz, yəni Çin şirkəti tərəfindən qoyulur. İndi mən gördüm ki, işçilərin sayı da 500-ə yaxındır. Bu, eyni zamanda iş yerlərinin yaradılması proqramımıza da növbəti töhfədir. Əlbəttə ki, belə müəssisələr Çin-Azərbaycan dostluğunu daha da gücləndirir. Bu zavod cəmi bir il yarıma inşa edildi. Yəni ilyarım bundan əvvəl mən onun təməlini qoymuşam.

**Ciyi Vanq:** – Bəli.

**Prezident İlham Əliyev:** – Ona görə əminəm ki, fəaliyyəti də uğurlu olacaq və siz işinizi davam etdirəcəksiniz.

**Ciyi Vanq:** – Sizin köməyinizlə hər şey yaxşı olacaq.

**Prezident İlham Əliyev:** – Gözəl məhsuldur. İdxala da ehtiyac qalmır. Daxili bazarı təmin edəcəksiniz?

**Ciyi Vanq:** – Təmin edəcəyik.

Dövlətimizin başçısı müəssisəni işə saldı.

***

Daha sonra “Kartaş Kimya” MMC-nin Tikinti kimyəvilərinin istehsalı müəssisəsinin təməli qoyuldu.

Prezident İlham Əliyevə müəssisə barədə məlumat verildi.

Diqqətə çatdırıldı ki, “Kartaş Kimya” MMC-yə 2022-ci ilin iyulunda Sumqayıt Kimya Sənaye Parkının rezidenti statusu verilib. Şirkət tərəfindən sənaye parkının 2,5 hektar ərazisində müxtəlif tikinti kimyəvilərinin istehsalını həyata keçirəcək müəssisə inşa ediləcək. İnvestisiya dəyəri 17 milyon manat olan müəssisədə 250 daimi iş yerinin yaradılması nəzərdə tutulur. İstehsal olunan məhsullar daxili bazara satılmaqla yanaşı, Türkiyə və MDB ölkələrinə ixrac ediləcək.

Dövlətimizin başçısı müəssisənin təməlini qoydu.

*Ardı 2-ci səhifədə*



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 23-də Ulu Öndər Heydər Əliyevin Sumqayıt şəhərinin mərkəzində ucaldılan abidəsini ziyarət edib.

Dövlətimizin başçısı abidənin önünə gül dəstəsi qoyub.

* * *



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 23-də Mehdi Hüseynzadə adına Sumqayıt şəhər stadionunda yenidənqurmadan sonra yaradılan şəraitlə tanış olub.

Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı Zakir Fərəcov dövlətimizin başçısına stadionda görülən işlər barədə məlumat verdi.

Qeyd edək ki, Mehdi Hüseynzadə adına Sumqayıt şəhər stadionunun yenidən qurulmasına Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 21 noyabr tarixli Sərəncamına əsasən 2020-ci ildə başlanılıb. Tikinti işləri mərhələli şəkildə icra edilməklə 2022-ci ildə başa çatdırılıb.

Tamaşaçı tutumu 9502 nəfər olan stadionun ərazisi 6,8 hektardır. İyirmi iki sektordan ibarət stadionda 545 nəfərlik VİP və KİV tribunası da yaradılıb, ərazi abadlaşdırılıb, yaşıllıq zonaları salınıb.

Bildirildi ki, tikilialtı sahədə cüdo, boks və karate zalları fəaliyyət göstərəcək. Burada, eyni zamanda 2 trenajor otağı, 40 nəfərlik konfrans zalı, inzibati otaqlar, jurnalistlər, hakim, həkim, şərhçilər, məşqçilər üçün otaqlar və digər texniki-köməkçi otaqlar var.

Son illər ölkəmizdə idmanın inkişafına böyük diqqət və qayğı göstərilir. Bunun nəticəsidir ki, bu gün Azərbaycan idmançıları beynəlxalq yarışlarda yüksək göstəricilər əldə edir, üçrəngli Bayrağımızı ucaldırlar. Bütün bunlar göstərir ki, ölkəmizdə idmanın inkişafının və onun kütləviliyinin təmin olunması istiqamətində dövlət siyasəti uğurla davam etdirilir. Bu diqqət və qayğı həm də yeni nəslin sağlam ruhda böyüməsinə, gənclərin idmana marağının artırılmasına yönəlib ki, belə idman obyektlərinin istifadəyə verilməsi bu məqsədin həyata keçirilməsində mühüm rol oynayır.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 23-də 2 saylı Sumqayıt Şəhər Xəstəxanasının yeni binasının açılışında iştirak edib.

Səhiyyə naziri Teymur Musayev dövlətimizin başçısına xəstəxanada yaradılan şərait barədə məlumat verdi.

Bildirildi ki, 150 çarpayılıq xəstəxananın bina və qurğuları 6,1 hektar sahədə inşa edilib, tikililərin ümumi sahəsi 18 min 288,4 kvadratmetrdir.

Qeyd edildi ki, səhiyyə ocağının tikinti işlərinə 2019-cu ildə başlanılıb və 2022-ci ildə başa çatdırılıb.

Xəstəxana poliklinika, təcili tibbi yardım, 30 çarpayılıq terapiya, 30 çarpayılıq cərrahiyyə, şüa diaqnostika, hemodializ, oftalmologiya, endokrinoloji terapiya, endokrinoloji cərrahiyyə, nevrologiya, 10 çarpayılıq əməliyyat bloku, reanimasiya və sair şöbələrdən, həmçinin laboratoriyadan, digər tikili və qurğulardan ibarətdir.



Müalicə ocağı müasir tələblərə cavab verən və böyük vəsait tələb edən tibbi avadanlıqlar – çoxkəsikli kompüter tomoqrafiyası (KT), rəqəmsal teleskopik rentgen cihazı, rəqəmsal DR rentgen qurğusu, oftalmoloji müayinə üçün mikroskop, oftalmoloji cərrahi əməliyyatlar üçün PHACO AMO cihazı və iki ədəd rəqəmsal stasionar ultrasəs müayinə cihazı ilə təchiz olunub.

Xəstəxananın həyəti abadlaşdırılıb, yaşıllıq sahələri salınıb.

Qeyd edək ki, Prezident İlham Əliyevin tapşırığı ilə son illər Azərbaycanda səhiyyə sisteminin təkmilləşdirilməsi, onun maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində mühüm işlər görülüb. Bu sahədə aparılan davamlı islahatlar, həyata keçirilən layihələr sayəsində ölkəmizdə əhaliyə göstərilən tibbi xidmətlərin keyfiyyəti və əhatə dairəsi yüksəlib. Görülən işlər əhalinin sağlamlığının qorunmasına, onların hərtərəfli tibbi xidmətlərlə əhatə olunmasına imkan verir ki, bu da vətəndaşlar tərəfindən məmnunluqla qarşılanır.

**AZƏRTAC**

## İlham Əliyev gerçəkliyi: davamlı inkişaf, qüdrətli dövlət, Tarixi Zəfər

### *Ölkə başçısının 20 illik uğurlu prezidentlik fəaliyyətinə həsr olunmuş tədbirlər keçirilib*



Naxçıvan Dövlət Universiteti Beynəlxalq məktəbində "İlham Əliyev gerçəkliyi: davamlı inkişaf, qüdrətli dövlət, Tarixi Zəfər" mövzusunda tədbir keçirilib.

Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi, Ulu Öndərin və şəhidlərimizin əziz ruhunun bir dəqiqəlik sükutla yad edilməsindən sonra universitetin rektoru Elbrus İsayev çıxış edərək bildirib ki, Heydər Əliyev siyasətini bütün sahələrdə uğurla davam etdirən Prezident cənab İlham Əliyev Ona olan ümidləri, etimadı doğrultdu.

Rektor uğurlarımızın zirvəsində dayanan Tarixi Zəfərimizdən geniş bəhs edərək vurğulayıb ki, bu, müstəqillik tariximizin ən parlaq səhifəsidir. Prezident cənab İlham Əliyevin hər bir qərarı, təşəbbüsü və addımı Azərbaycanı Qarabağın azadlığına yaxınlaşdırırdı. 2020-ci ilin 27 sentyabrında başlanan Vətən müharibəsi Ali Baş Komandan cənab İlham Əliyevin qətiyyəti, xalqın birliyi və ordumuzun gücü nəticəsində Zəfərlə sona çatdı.

Universitetin Sosial məsələlər və ictimaiyyətlə əlaqələr üzrə prorektoru, tarix üzrə fəlsəfə doktoru Arzu Abdullayev çıxışında qeyd edib ki, Azərbaycanın son iyirmi ildə qazandığı misilsiz nailiyyətlər, birmənalı olaraq, möhtərəm Prezident İlham Əliyevin müdrik siyasətinin, qətiyyətli, qüdrətli liderliyinin nəticəsi, bariz nümunəsidir.

Tarix ixtisası üzrə II kurs tələbəsi Əziz Vəliyevin "Prezident İlham Əliyevin gənclər siyasəti gələcəyə hesablanmış uğurlu siyasətin təcəssümüdür" mövzusunda çıxışı dinlənilib, "İlham" adlı sənədli film nümayiş etdirilib.

* * *



*Azərbaycan Respublikası Hesablama Palatasının Naxçıvan Muxtar Respublikası üzrə İdarəsində keçirilən tədbirin əvvəlində şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.*

Sonra tədbiri giriş sözü ilə açan Azərbaycan Respublikası Hesablama Palatasının Naxçıvan Muxtar Respublikası üzrə İdarəsinin rəisi Hafiz İsmayılbəyli bildirib ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin hakimiyyətinin 20 illiyi Azərbaycanın dövlətçilik tarixinə dinamik və hərtərəfli inkişaf dövrü kimi daxil olub. Ölkə həyatının bütün sahələrində böyük uğurlar, misilsiz və qürurverici qələbələr əldə edilib. Bildirilib ki, Prezident cənab İlham Əliyevin yürütdüyü milli maraqlara söykənən xarici siyasət nəticəsində Azərbaycan müstəqil mövqeyi ilə seçilən dövlət kimi beynəlxalq nüfuzunun möhkəmlənməsinə nail olub.

Sonda çıxışlar dinlənilib.



Naxçıvan İpoteka Fondu Açıq Səhmdar Cəmiyyətində keçirilən tədbirdə əvvəlcə Ulu Öndər Heydər Əliyevin və Azərbaycanın suverenliyi, ərazi bütövlüyü uğrunda canlarını fəda edən şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbiri giriş sözü ilə Naxçıvan İpoteka Fondu Açıq Səhmdar Cəmiyyətinin İdarə Heyətinin sədri Yalçın Vəliyev açaraq Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin son 20 ildəki parlaq fəaliyyətindən danışıb. Bildirilib ki, 15 oktyabr 2003-cü ildə cənab İlham Əliyevin Prezident seçilməsi xalqımızın taleyində tarixi bir gündür. Son 20 ildə cənab Prezidentin rəhbərliyi ilə aparılan ordu quruculuğu, xarici siyasət və iqtisadi yüksəliş Qarabağ zəfərini təmin etdi. Diqqətə çatdırılıb ki, bu gün Qarabağda böyük bərpa-quruculuq işləri aparılır və "Böyük Qayıdış" həyata keçir.

Tədbirdə Naxçıvan İpoteka Fondu Açıq Səhmdar Cəmiyyətinin əməkdaşı Rifat Bayramovun da çıxışı olub.

**Xəbərlər şöbəsi**

*AMEA Naxçıvan Bölməsində İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun təşkilatçılığı ilə "Ulu Öndər Heydər Əliyev irsində dil və ədəbiyyat məsələləri" mövzusunda elmi konfrans keçirilib.*

## Ulu Öndər Heydər Əliyev irsində dil və ədəbiyyat məsələləri



Konfransı giriş sözü ilə açan bölmənin sədri, akademik İsmayıl Hacıyev bildirib ki, "Heydər Əliyev İli" çərçivəsində Azərbaycanda və ölkəmizdən kənarda müxtəlif tədbirlər keçirilir, Azərbaycan Milli Elmlər Akademiyasının elmi-tədqiqat müəssisələrində, eləcə də Naxçıvan və Gəncə bölmələrində bu istiqamətdə aparılan araşdırmaların nəticələri müxtəlif kitab, monoqrafiya və toplularda nəşr olunur.

Vurğulanıb ki, Ulu Öndər Heydər Əliyev Azərbaycana rəhbərliyinin hər iki dövründə ölkəmizin inkişafı üçün çalışmış, xalqın və ölkənin gələcəyinə yönəlik işlər görmüşdür. Lakin bu uzaqgörənlik təkcə sosial-iqtisadi inkişafla məhdudlaşmır. Xalqın mədəni inkişafı, milli dəyərlərimizin qorunması Ümummilli Liderin fəaliyyətinin əsas istiqamətlərindən olmuşdur. Belə ki, Azərbaycan SSR-in hələ 1978-ci ildə qəbul edilmiş Konstitusiyasında ana dilimizin rəsmi dövlət dili elan olunması məhz Heydər Əliyevin nüfuzu, yürütdüyü bacarıqlı siyasət sayəsində mümkün olmuşdur.

AMEA Naxçıvan Bölməsi İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun baş direktoru, AMEA-nın müxbir üzvü, professor Əbülfəz Quliyev konfransda "Heydər Əliyev və Türk dünyası ədəbiyyatı məsələləri", Dilçilik şöbəsinin müdiri, filologiya elmləri doktoru, dosent Nuray Əliyeva "Heydər Əliyev və Azərbaycan dili məsələləri", Ədəbiyyatşünaslıq şöbəsinin müdiri, filologiya üzrə fəlsəfə doktoru, dosent Ramiz Qasımov "Heydər Əliyevin ədəbiyyat siyasəti", institutun icraçı direktoru, filologiya üzrə fəlsəfə doktoru, dosent Elxan Məmmədov "Naxçıvan şairlərinin yaradıcılığında Heydər Əliyev obrazı" mövzusunda məruzələr ediblər. Məruzələrdə Ümummilli Lider Heydər Əliyevin ana dilimizin dövlət dili səviyyəsinə qaldırılması və işlədilməsi ilə bağlı həyata keçirdiyi tədbirlərdən bəhs olunub.

***AMEA Naxçıvan Bölməsinin mətbuat xidməti***



“Hüseyn Cavid”, Rəssam-Həbibə Allahverdiyeva

**Ulu Öndər Heydər ƏLİYEV: *...Hüseyn Cavidin əsərləri xalqa hava-su kimi lazımdır. ...Hüseyn Cavidin yaratdığı əsərlər Azərbaycan xalqının milli sərvətidir. Onlar bu gün üçün, gələcək nəsillər üçün dərslik kitabıdır.***



# Ülvi xəyallar aləmindən boylanan əbədiyaşar həqiqət

*Azərbaycan xalqının dünya ictimai fikir və mədəniyyət tarixinə bəxş etdiyi çoxsaylı görkəmli şəxsiyyətlər arasında böyük romantik şair, dramaturq Hüseyn Cavidin adı xüsusi yer tutur. Bəşəri dəyərlərə verdiyi əhəmiyyətə, ali ideallara dönmədən göstərdiyi sədaqətə və xidmətə görə bu görkəmli Azərbaycan şairi və dramaturqun yaradıcılığı ədəbiyyat tarixində ön sıralardan birini tutmaqdadır.*

Azərbaycan ədəbiyyatında romantizm cərəyanının qüdrətli nümayəndələrindən biri və bayraqdarı kimi şöhrət qazanan Hüseyn Cavid çoxcəhətli və zəngin yaradıcılığa malik olmuşdur. Yaradıcılığına lirik şeirlə başlayan və “Gülçin”, “Salik” imzaları ilə şeirlər yazan Cavid ədəbiyyat tarixində gözəl şair olaraq tanınır. Onun, həmçinin böyük istedadla yazılmış zəngin dram əsərləri Azərbaycan ədəbiyyatının qızıl fondunu təşkil edir. Böyük dramaturq kimi şöhrətlənən Hüseyn Cavid “Ana”, “Şeyx Sənan”, “Uçurum”, “İblis”, “Topal Teymur”, “Peyğəmbər”, “Xəyyam”, “Səyavuş” və başqa dram əsərləri, “Azər” poeması ilə böyük humanist ideallar şairi olaraq özünü təsdiq etmişdir. “Yadi-mazi”, “Get”, “Könlümü”, “Hər yer səfalı, nəşəli” qəzəlləri, “Xuraman-xuraman” kimi şeirlər Hüseyn Cavidin ədəbi şəxsiyyəti və sənət idealını səciyyələndirmək üçün mühüm əhəmiyyət daşıyır. “Mənim Tanrım” şeiri isə görkəmli ədibin sənət və yaradıcılıq manifesti kimi çıxış edir:

*Həzz etmədim firqədən, cəmiyyətdən,*
*Zövq alamam hərbdən, siyasətdən,*
*Bir şey duymam fəlsəfədən, hikmətdən,*
*Mənim Tanrım gözəllikdir, sevgidir.*

“Sevgi xoşdur, sonu fəryad olsa da”, “Sevgisiz bir başda əqrəblər gəzər” kimi misraları şairin sənət kredosunu özündə ifadə edir.

### Böyük ideallar şairi

Hər bir əsərində böyük humanist ideyalarla çıxış edən görkəmli dramaturq bütün bəşəriyyətin xilası və nicatını məhəbbətdə, sülh və barışda görürdü. “Məhəbbətdir ən böyük din” fikri Hüseyn Cavidin yaradıcılıq şüarı və sənət proqramı idi. “Din bir olsaydı, yer üzündə əgər, Daha məsud olurdu cinsibəşər” misrası ilə bu görkəmli Azərbaycan şairi bütün cəmiyyətlərin, ümumən, bəşəriyyətin xoşbəxt və firavan yaşayışı üçün hər cür ayrı-seçkiliyi ləğv edən böyük humanist ideya irəli sürürdü. Şair “Mənim Tanrım gözəllikdir, sevgidir” idealını irəli sürərək sevgini ictimai yaşayış tərzi və əxlaqı kimi bütün bəşəriyyətin, insanlığın xilası, nicatı olaraq müəyyənləşdirirdi. Buna görə də bu böyük söz ustadının hər sətri və misrası başdan-başa humanizm və məhəbbət ideyasından yoğrulmuşdu.

Özünü mənsub olduğu xalqının maariflənməsi, inkişafı və azadlığı üçün həsr edən Hüseyn Cavid həm də böyük maarifçi idi. Publisist əsər və məqalələrində, eləcə də bədii əsərlərində maarif, tərbiyə tərəfdarı kimi çıxış edirdi. “Turana qılıncdan daha kəskin, ulu qüvvət, Yalnız mədəniyyət, mədəniyyət, mədəniyyət” fikri böyük şairin maarifçilik şüarlarının əyani ifadəsidir. O, mənsub olduğu xalqının gələcəyini oxumaqda, məktəbdə, tərbiyədə görür, özü də həm şair, həm də görkəmli pedaqoq, müəllim kimi bu ideallara yorulmadan xidmət göstərirdi. Böyük pedaqoq-şair H.Cavid: “O kəs kim elmdən məhrum, cəhlilə “fanatik”dir, Dəmə, insan o nadanə ki, bir heyvani-natiqdir”, – deyə elmi, mərifəti insanlığın meyarı hesab edərək xalqını, millətini maarifə, elmə səsləyirdi. H.Cavid, həmçinin “diqqət nəzəri ilə baxanda əcnəbilər “balon vasitəsilə neçə günlük məsafəni bir saat ərzində, elmi-sənaət təhsili qüvvəsilə teyy etməyə qadir olurlar”, – deyərək müsəlmanların cəhalət, fanatizm, gerilik içərisində qalmağını ürəkağrısı ilə ifadə edirdi. Millətpərvər şair milli dil məsələsində də dövrün görkəmli ziyalılarının fikir və mübarizələrinə qoşulurdu. “Əbnayivətən üçün lazımdır ki, əvvəlcə Vətən dili olan türk dilini ...öyrənmək”, – deyə millətpərvər şair ana dilini öyrənməyi zəruri hesab edir və onun mücadiləsinə qoşulurdu. Təsadüfi deyildi ki, ana dilinə bu qədər məhəbbətlə bağlanan və əsərlərində Azərbaycan dili xüsusi ağırlıq təşkil edən böyük hünərvər şairin bədii yaradıcılıq dili ortaq türkcənin ən ideal nümunəsi hesab edilirdi.

Hüseyn Cavid sovet dövründə quru, boş, hay-küylü sosializm şüar və yaradıcılıq pafosundan kənar, özünəməxsus, inandığı ideal və ideyalar işığında ədəbi fəaliyyət göstərirdi. Onun “Topal Teymur”, “Peyğəmbər”, “Xəyyam”, “Səyavuş” pyesləri, “Azər” poeması məhz bu dövrün məhsulu olsa da, bu əsərlərdə sosializm şüarlarından fərqli olaraq ictimai həqiqət olan sülhə, humanizmə, ədalətə inam və çağırışlar yer tuturdu. Dövrünün yalançı ideoloji kampaniyasına uymayan Cavid öz sənət idealına sədaqət göstərərək ədəbiyyat tarixində “söz və fikir zadəganı” olaraq qaldı. Repressiyanın növbəti qurbanlarından biri olsa da, Hüseyn Cavid öz yaradıcılıq idealı ilə ədəbiyyat və əbədiyyət üfüqlərində bir Günəş olaraq parladı. Onun əsərləri bu gün üçün də öz müasirliyini qorumaqda, əhəmiyyətini saxlamaqdadır.

### Dahidən dahiyə rəğbət

Ulu öndər Heydər Əliyevin siyasi hakimiyyətə gəlişinə qədər unudulan Hüseyn Cavidin əsl bəraətini də məhz ədəbiyyatımızın böyük hamisi vermişdir. Ümummilli Liderimiz Hüseyn Cavid irsinin öyrənilməsi və təbliğinin əhəmiyyətini vurğulayaraq demişdir: ***“Bizim hamımızın borcu, xüsusən müəllimlərin, məktəbliləri, gənc nəsli tərbiyə edənlərin borcu ondan ibarətdir ki, Hüseyn Cavidin əsərlərini hamıya çatdırsınlar, xüsusən bizim gənclərə. Məktəblərdə Hüseyn Cavidin əsərləri xüsusi yer tutmalıdır. ...Çünki onun hər bir əsərində bir dünya var və bu barədə bizim müəllimlərimizin üzərinə çox böyük vəzifə düşür”.*** Məhz bu böyük şəxsiyyətin xalqına bağlılığı və sənətə sonsuz sevgisi işığında bəraət alaraq xalqın milli sərvəti kimi təqdim və təbliğ edilən Hüseyn Cavid davamlı dövlət qayğısı ilə əhatə olundu. 24 oktyabrın “Cavid Poeziya Günü” kimi qeyd edilməsi bu böyük sənətkara olan ehtiramın bariz ifadəsi idi. Ulu Öndərimizin böyük qayğıkeşliklə həyata keçirdiyi misilsiz xidmətlər içərisində Azərbaycan xalqının dahi övladı, böyük şair-dramaturq Hüseyn Cavidin əsl bəraət hüququ alması, nəşinin Uzaq Sibirdən doğma Vətəni Naxçıvana gətirilməsi, ev-muzeyinin yaradılması, türbəsinin ucaldılması, əsərlərinin çoxsaylı tirajlarla çapı və təkrar-təkrar nəşr edilməsi, təbliği və sair xüsusi əhəmiyyətlə qeyd edilməlidir. 37-ci illərin repressiya qurbanı olmuş Hüseyn Cavidə göstərilən bu qayğı vətənpərvər bir övladın böyük fədakarlıqla xalqına və millətinə göstərdiyi əvəzsiz bir xidmət nümunəsi idi. Görkəmli ədibin dövlət səviyyəsində yubileylərinin qeyd olunması, müxtəlif elmi, ədəbi-bədii tədbirlərin keçirilməsi, Bakı və Naxçıvan şəhərlərində ustad sənətkarın abidələrinin ucaldılması, xatirə muzeylərinin yaradılması, vaxtilə ədibin yaşadığı binaya xatirə lövhəsinin vurulması, yubiley medalının hazırlanması, pyeslərinin respublika teatrlarının repertuarlarına yenidən daxil edilməsi, Naxçıvanda “Cavid Poeziya Teatrı”nın yaradılması, mütəfəkkir söz ustadının əsərlərinin dörd cilddə nəşri, onun haqqında monoqrafiyaların, xatirə məcmuələrinin nəşri, həyat və yaradıcılığını əks etdirən salnamənin hazırlanaraq ədəbi ictimaiyyətə çatdırılması, seçilmiş əsərlərinin, sənət yolunu əks etdirən tanıtma kitabçasının başqa dillərə tərcümə olunaraq çap edilməsi və digər tədbirlər böyük şair-dramaturq Hüseyn Cavid şəxsiyyəti və sənətinə göstərilən yüksək dövlət qayğısı və ehtiramının ifadəsidir.

### Əbədiyaşar Cavid irsinə göstərilən dövlət qayğısı

Ümumiyyətlə, Hüseyn Cavidin xatirəsinin əbədiləşdirilməsi, əsərlərinin nəşri, tədqiqi, təbliği, dünyada tanıdılması istiqamətində həyata keçirilən çoxsaxəli və möhtəşəm tədbirlər bu gün də böyük ehtiramla davam etdirilməkdədir. Ölkəmizə uğurla rəhbərlik edən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Sərəncamı ilə dahi şairin yubileylərinin qeyd edilməsi də bu böyük mütəfəkkir şairə dövlət qayğısının diqqət mərkəzində olduğunun bariz göstəricisidir. “Hüseyn Cavidin 140 illiyinin qeyd edilməsi haqqında” Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2022-ci il 24 sentyabr tarixli Sərəncamı da qüdrətli sənətkarımıza göstərilən dövlət qayğısının daha bir ifadəsidir. Sərəncamda böyük sənətkarımızın ədəbi mövqeyi və roluna yüksək qiymət ifadə edilərək deyilir: *“Hüseyn Cavid fəlsəfi müdrikliyin və bədii kamilliyin ahəngdar vəhdətini dolğun təcəssüm etdirən yaradıcılığı ilə Azərbaycan ədəbiyyatı tarixinə işıqlı səhifələr yazmışdır. O bütün ədəbi fəaliyyəti boyu həqiqəti, insanpərvərliyi və gözəlliyi tərənnüm etmişdir. Şərq poetik fikri zəminində yüksələn və dünya romantizm ənənələrindən uğurla bəhrələnən filosof şair Azərbaycan poeziyasında fəlsəfi lirikanın dəyərli nümunələrini meydana gətirmişdir. Qüdrətli sənətkar humanist ideallar uğrunda mübarizəyə səsləyən mənzum faciələri və tarixi dramları ilə Azərbaycan dramaturgiyasında yeni mərhələnin təməlini qoymuşdur. Parlaq xarakterlərlə zəngin olub, bir neçə nəslin estetik zövqünü formalaşdıran və ölkəmizdə teatr mədəniyyətinə yeni nailiyyətlər qazandıran bu dramaturgiya milli teatr salnaməsində “Cavid teatrı” kimi özünəməxsus layiqli yer tutur. Cavid irsi Azərbaycan ədəbiyyatının qızıl fonduna həmişəlik daxil olmuşdur”.* Böyük şairin əsərlərinin dəfələrlə nəfis tərtibatda çap olunması, əsərlərinin teatr repertuarlarında oynanılması, yaradıcılığının latın qrafikalı əlifba əsasında nəşr edilərək bütün ölkə kitabxanalarına hədiyyə edilməsi və digər işlər dahi şairə göstərilən dövlət qayğısının bariz təcəssümü kimi də razılıq doğurur.

*Beləliklə, böyük Azərbaycan dramaturqu, humanist ideallar şairi Hüseyn Cavid irsi həmişəyaşardır, ölməz və aktualdır. Onun hər bir əsəri bu günümüz üçün müasirdir və əhəmiyyətlidir. Ümummilli Liderimiz Heydər Əliyevin dediyi kimi:* ***“Onun hər bir əsərində bir dünya var”.***

**Ramiz QASIMOV**
***AMEA Naxçıvan Bölməsinin şöbə müdiri, filologiya üzrə fəlsəfə doktoru, dosent***

# Torpaqların su təminatının yaxşılaşdırılması işləri diqqətdə saxlanılır

*Naxçıvan Muxtar Respublikasında 2023-cü ilin sentyabr ayı ərzində suvarma mövsümünü mütəşəkkil şəkildə davam etdirmək məqsədilə cəmiyyətin tabe idarələri tərəfindən kanal və arxlarda lildən təmizlənmə işləri, suvarılan sahələrdə qrunt sularının səviyyəsini aşağı salmaq üçün müvafiq işlər görülmüş, hidrotexniki qurğularda təmir işləri aparılmış, anbarlara suyun yığılması davam etdirilmiş, suvarma suyundan səmərəli istifadə olunmasına nəzarət həyata keçirilmişdir. Belə ki, muxtar respublikanın mövcud su anbarlarında 2023-cü ilin sentyabr ayının sonuna 70,47 milyon kubmetr su ehtiyatı toplanmışdır. Su istifadəçilərinə sentyabr ayı ərzində 8,32 milyon kubmetr su verilmiş, bunun müqabilində 6 min 779 hektar torpaq sahəsi suvarılmışdır.*

2023-cü ilin ötən ayı ərzində 14,06 kilometr beton və torpaq kanallar, 17,12 kilometr ara arxlar, 2,9 kilometr kollektor lildən təmizlənmiş, 1,96 kilometr içməli su, 0,19 kilometr kanalizasiya xətləri çəkilmiş, 5,95 kilometr mövcud içməli su xətlərində, 0,03 kilometr kanalizasiya xətlərində, 2,16 kilometr suvarma boru xətlərində, 1,59 kilometr təzyiqli boru xətlərində, 0,27 kilometr kaptajlarda, 0,22 kilometr isə açıq drenajlarda təmir-bərpa işləri aparılmışdır.

Torpaq sahələrinin su ilə təminatının yüksəldilməsi və su itkisinin qarşısının alınması məqsədilə mövcud kanal və arxların ehtiyac olan hissələrində təmir-bərpa işlərinin aparılması davam etdirilmişdir.

Torpaq sahələrinin şoranlaşmasının qarşısını almaq məqsədilə kollektorlar lildən təmizlənmişdir. Şərur rayonunda Püsyan kollektorunda 2,9 kilometr lildən təmizləmə işləri aparılmışdır. Görülən işlər nəticəsində Şərur rayonunun 35 hektar, Babək rayonunun isə 4,4 hektar torpaq sahəsində qrunt sularının səviyyəsi aşağı salınaraq şoranlaşmanın qarşısı alınmışdır.

Yaşıllıq zolaqlarının suvarma suyu ilə təminatını yaxşılaşdırmaq məqsədilə Babək rayonu ərazisində 0,1 kilometr mövcud yaşıllıq zolaqlarının suvarma boru xətlərində təmir-bərpa işləri aparılmışdır.



Nasos stansiyalarında və təzyiqli boru xətlərində cari təmir işləri davam etdirilmişdir. Şərur rayonunda “Zeyvə-1”, “S.Vurğun”, “Qarahəsənli”, “Qorçulu”, “Dərəkənd” nasos stansiyalarının təzyiqli boru xətlərində 0,87 kilometr, Babək rayonunda “Araz-1”, “Nehrəm” nasos stansiyalarının təzyiqli boru xətlərində 0,07 kilometr, Şahbuz rayonunda “Daylaqlı”, “Şahbuzkənd”, “Yeni” nasos stansiyalarının və Şahbuz şəhər subartezian quyusunun təzyiqli boru xətlərində 0,09 kilometr, Culfa rayonunda “Culfa-1”, “Gülüstan” nasos stansiyalarının, Bənəniyar su anbarının təzyiqli boru xətlərində və Culfa şəhər içməli su xəttinin təzyiqli boru xətlərində 0,25 kilometr, Sədərək rayonunda “Sədərək-1”, “Sədərək-2”, “Sədərək-4” nasos stansiyalarının təzyiqli boru xətlərində 0,07 kilometr, Kəngərli rayonunda “Qıvraq-1”, “Qıvraq-2” nasos stansiyalarının təzyiqli boru xətlərində 0,12 kilometr, Naxçıvan şəhəri ərazisində olan “Azərbaycan”, “Qaraçuq-1”, “Sərhəd dəstəsi”, “Y.Cabbarov” nasos stansiyalarının təzyiqli boru xətlərində isə 0,11 kilometr təmir-bərpa işləri aparılmışdır.

2023-cü ilin sentyabr ayı ərzində 4 kəhrizdə cari təmir işləri aparılmış, ay ərzində kəhrizlərdə 647 metr kürə təmizlənmiş, 16 metr saybənd hörülmüşdür. Suvarma və içməli su mənbəyi kimi istifadə olunan subartezian quyularının 6 ədədinə yeni nasos quraşdırılmaqla 47 ədədi təmir olunmuşdur. Bundan əlavə, Babək rayonunun Sirab kəndində içməli su təminatını yaxşılaşdırmaq məqsədilə 1 subartezian quyusunun qazıntı işləri başa çatdırılmışdır.

Cəmiyyətin Texniki Nəzarət, Hidrotexniki Qurğuların və Subartezian Quyuların Təmiri İdarəsinin təmir sexləri tərəfindən 3 ədəd nasos rotoru, 1 ədəd vakuum nasosu, 8 ədəd su sayğacı təmir olunmuş, 111 ədəd nasos hissəsi hazırlanmışdır.

“Rayon mərkəzi və ətraf kəndlərin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması” layihəsi çərçivəsində Babək rayonunun Nehrəm qəsəbəsində içməli su və kanalizasiya şəbəkəsinin tikintisi davam etdirilmişdir. Ərazidə 41 evin içməli su xəttinə, 118 evin isə kanalizasiya xəttinə birləşməsi aparılmışdır.

***Naxçıvan Muxtar Respublikası Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin mətbuat xidməti***

## Prokurorluq işçisi ilə görüş



Qulluqda olmanın son yaş həddinə çatmış prokurorluq işçisi ilə görüş keçirilib. "Prokurorluq orqanlarında qulluqkeçmə haqqında" Azərbaycan Respublikası Qanununun 32.2-ci maddəsinə əsasən prokurorluqda qulluqda olmanın son yaş həddinə çatmış Naxçıvan hərbi prokurorunun böyük köməkçisi, ədliyyə polkovnik-leytenantı İsa Məhərrəmovun qulluq keçməsinə xitam verilməsi ilə əlaqədar Naxçıvan Muxtar Respublikası Prokuroru Sənan Paşayev oktyabrın 23-də onu qəbul edərək Azərbaycan Respublikası Baş prokurorunun müvafiq əmri ilə təltif olunduğu "Fəxri fərmanı" təqdim edib. Görüşdə tədbir iştirakçıları xatirələrini bölüşüb səmimi söhbətlər edib və sonda xatirə şəkilləri çəkdirilib.

## Təbiəti birgə qoruyaq!




"Təbiəti birgə qoruyaq!" aksiyası çərçivəsində Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin əməkdaşları və ekologiya könüllülərinin iştirakı ilə təmizlik aksiyası keçirilib. Aksiya çərçivəsində Naxçıvançay ətrafındakı ərazilər tullantılardan təmizlənib. Mütəmadi olaraq təşkil olunan bu cür aksiyaların keçirilməsinin məqsədi Naxçıvan şəhərində və bölgələrdə yaşıllıqları artırmaq, əraziləri məişət tullantılarından təmizləmək, gənclərə təbiətə məhəbbət hissi aşılamaq, ekoloji mədəniyyət formalaşdırmaq və ətraf mühitin mühafizəsinin önəmini ictimaiyyətin diqqətinə çatdırmaqdan ibarətdir.

**Xəbərlər şöbəsi**

## Boksçuların mübarizəsində qaliblər bəlli olub



Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya İdman Kompleksində böyüklər və gənclər arasında boks üzrə Naxçıvan Muxtar Respublika çempionatına yekun vurulub. Gənclər və İdman Nazirliyi ilə Naxçıvan Muxtar Respublikası Boks Federasiyasının birgə təşkil etdikləri yarışda 12 çəki dərəcəsi üzrə 35 boksçu medallar uğrunda mübarizə aparıb.

İki gün davam edən birinciliyin qalibləri final görüşlərinin nəticələri əsasında müəyyənləşib. Ucal Musayev (48 kiloqram), Hüseyn Məmmədzadə (54 kiloqram), Alişan İsmayılov (57 kiloqram), Ayxan Heydərov (60 kiloqram), Abbasəli Nəcəfli (63,5 kiloqram), Nazim Abazərli (67 kiloqram), Asim Əliyev (71 kiloqram), Ruslan Yusifov (75 kiloqram), Kənan Allahverdiyev (80 kiloqram), Elvin Quliyev (86 kiloqram), Ramiz Tarverdiyev (92 kiloqram) və Bayram Allahverdiyev (92+ kiloqram) müvafiq çəki dərəcələrində qalib olublar.

*Təhsil millətin gələcəyidir*

# Gərgin əməyin daha yüksək hədəflərə səsləyən şirin bəhrəsi

*Ölkə başçısı cənab İlham Əliyev 2023-2024-cü tədris ilində Azərbaycan Respublikasının ali məktəblərinə daxil olmuş tələbələrə Prezident təqaüdünün verilməsi haqqında Sərəncam imzalayıb. Sərəncama əsasən 2023-2024-cü tədris ilində qəbul imtahanlarında ixtisas qrupları üzrə ən yüksək nəticə göstərmiş və Azərbaycan Respublikasının ali məktəblərində qəbul olan tələbələrə Prezident təqaüdü verilib. Onlar sırasında Naxçıvandan olan 6 tələbə də var. Biz də həmin tələbələrlə görüşüb həmsöhbət olduq.*



Naxçıvan şəhərindəki İslam Səfərli adına 1 nömrəli tam orta məktəbin məzunu ***Rəna Rəhimli:*** – 680,2 balla Bakı Ali Neft Məktəbinin Maliyyə ixtisasına (ingilis dilində) qəbul olmuşam. Ölkə Prezidentinin Sərəncamı ilə Prezident təqaüdünə layiq görülmüşəm. Hər bir gənc kimi bu mənim üçün də böyük bir qürur hissidir. Ölkə başçımıza təhsilə göstərdiyi yüksək qayğıya görə həm yoldaşlarım, həm də öz adımdan dərin minnətdarlığımı bildirirəm.




Şahbuz rayonunun Kükü kənd tam orta məktəbinin məzunu ***Əli Məmmədli :*** – Ən böyük arzularımdan biri yüksək nəticə ilə ali məktəbə qəbul olmaq idi. Nəhayət, arzuma çatdım və buraxılış imtahanından 285,6, blok imtahanından 382,2 və ümumilikdə, 667,8 bal toplayaraq IV qrup üzrə muxtar respublika birincisi oldum. Azərbaycan Tibb Universitetinin Tibb ixtisasını (tədris ingilis dilində) seçdim. Məktəbdə oxuduğum illərdə olimpiada və bir çox intellektual oyunlarda iştirak etmişəm, Amerika Riyaziyyat olimpiadasında qızıl medalla təltif olunmuşam. Hər bir uğur, nailiyyət böyük əmək, səy tələb edir. Bu uğurlarımı müəllimlərim və valideynlərimin köməyi ilə qazanmışam. Bizə, təhsilimizə göstərilən diqqət və qayğıya görə dövlətimizə minnətdaram. Gələcək hədəfim işğaldan azad olunan torpaqlarda əhalinin sağlamlığı üçün çalışmaqdır.



Naxçıvan şəhərindəki Hüseyn Cavid adına 5 nömrəli tam orta məktəbin məzunu ***Hafiz Bəylərli*** təhsil aldığı müddətdə dərslərinə hər zaman məsuliyyətlə yanaşıb, məktəbi "Qızıl" nişanla bitirib. Qəbul imtahanları üzrə, ümumilikdə, 657 bal toplayıb. Hazırda təhsilini ADA Universitetinin Hüquqşünaslıq fakültəsində davam etdirir: – Mən hələ orta məktəbdə təhsil alarkən "Prezident təqaüdçüsü" olmaq arzusu ilə qəbul imtahanlarına hazırlaşırdım. Və bu xəyalım cənab İlham Əliyevin 2023-cü ilin 18 oktyabr tarixli Sərəncamı ilə gerçəkləşdi. Prezidentimizin təhsilə göstərdiyi xüsusi qayğıya görə minnətdarlığımı bildirirəm. Bu uğuru qazanmağımda ailəm və müəllimlərimin böyük rolu olub. Arzu edirəm ki, peşəmin sirlərini dərindən öyrənib ölkəmin vətəndaşlarının hüquqlarını müdafiə edəm.



Naxçıvan Qızlar Liseyinin 2022-2023-cü tədris ilinin məzunu, Prezident təqaüdçüsü ***İnci Fərəcova*** bildirdi ki, Dövlət İmtahan Mərkəzinin 2023-cü ildə keçirdiyi buraxılış imtahanında 281, blok imtahanında isə 4-cü blok üzrə 376, ümumilikdə isə 657 bal toplayıb. Buraxılış imtahanında əldə etdiyi yüksək nəticəyə görə "Qızıl" nişanla təltif olunub. Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsinin Tibb ( tədris ingilis dilində) ixtisasına qəbul olub və hazırda 1-ci kursda təhsil alır.

İnci deyir ki, universitetdə bu ixtisasa ilk dəfə qəbul aparılıb. Dərslər ingilis dilində tədris olunur. İncinin orta məktəbdə oxuduğu müddət ərzində ən böyük dəstəkçiləri ailəsi, liseydəki müəllimləri və "İstedad" kursunun kollektivi olub. Bu gün dövlətimizin təhsilə göstərdiyi qayğı onun kimi digər tələbələrin uğur qazanmasında başlıca amillərdən biridir. Müsahibimiz onu da vurğuladı ki, məhz "Heydər Əliyev İli"ndə Prezident təqaüdünə layiq görüldüyü üçün qürur hissi keçirir. Söhbətin sonunda İnci yaradılan şəraitə, elmə və təhsilə göstərilən qayğıya görə Prezident cənab İlham Əliyevə öz adından və tələbə yoldaşları adından dərin minnətdarlığını bildirdi.



Dövlət İmtahan Mərkəzi tərəfindən keçirilən imtahanlarda 651,1 bal toplayaraq Azərbaycan Dövlət İqtisad Universitetinin Maliyyə (ingiliscə) ixtisasına qəbul olmuş Naxçıvan şəhər 17 nömrəli tam orta məktəbin məzunu ***Əli Niftəliyev:*** – Prezident cənab İlham Əliyevin müvafiq Sərəncamı ilə Prezident təqaüdünə layiq görülmüşəm. Dövlət başçısının tələbələrə göstərdiyi diqqət hamımızı sevindirir. Bu da bizim üzərimizə böyük vəzifə qoyur. Başda dövlətimiz olmaqla bu yolda biz gənclərə dəstək göstərən hər kəsə minnətdarlığımı bildirirəm.



Culfa rayonunun Əlincə kənd tam orta məktəbinin məzunu ***Təhminə Məmmədli***nin dediklərindən: – Dövlət İmtahan Mərkəzinin keçirdiyi qəbul imtahanlarında 646,5 bal toplayaraq Bakı Mühəndislik Universitetinin Kompüter mühəndisliyi ixtisasına qəbul olmuşam. Hazırda təhsilimi bu universitetdə davam etdirirəm. Əldə etdiyim uğurlu nəticə 11 ilin bəhrəsidir. Düşünürəm ki, əgər yenidən abituriyent olsaydım, daha çox çalışardım, ingilis dilini tələb olunandan daha yaxşı öyrənər, yaradıcılıq və dərin düşünmə tələb edən bacarıqları daha yaxşı mənimsəyərdim. Abituriyentlərə onu tövsiyə edirəm ki, öz gələcəklərinin qayğısına qalmağa başlasınlar. Sıfırdan başlamalı olsalar belə yollarını dəyişməkdən, inamla addımlamaqdan qorxmasınlar.

Yüksək nəticələrimizin dövlətimiz tərəfindən qiymətləndirilməsi bizi çox sevindirdi. Prezident təqaüdünə layiq görüldüyüm üçün şadam. Bu yolda hamıya uğurlar arzulayıram.

*Biz də gəncləri təbrik edir, onlara gələcək tələbəlik və həyat yollarında uğurlar arzu edirik.*

**✍ Bülbül QULİYEVA**
**✍ Aysel YUSİFZADƏ**

## Şərur və Babək şəhərlərində vergiödəyicilərinə xidmət mərkəzlərinin tikintisinə başlanılıb

Müasir vergi inzibatçılığının formalaşdırılması məqsədilə Naxçıvan Muxtar Respublikasında vergiödəyicilərinə göstərilən xidmətlərin dairəsinin genişləndirilməsi istiqamətində tədbirlər davam etdirilir. Sahibkarlar üçün vergi xidmətlərinin əlçatanlığının təmin olunması üçün Şərur və Babək şəhərlərində ən yeni avadanlıqlarla təchiz ediləcək müasir dizaynlı xidmət mərkəzlərinin tikintisinə başlanılıb. Bu mərkəzlərdə bölgədə fəaliyyət göstərən vergiödəyicilərinə vergi sahəsində bütün xidmətlər təqdim ediləcək və onların vergi məsələlərinin həllinə dəstək göstəriləcək.

Qeyd edək ki, cari ilin may ayında Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illiyi ərəfəsində Naxçıvan şəhərində ilk belə xidmət mərkəzi sahibkarların və vətəndaşların istifadəsinə verilib.

***Naxçıvan Muxtar Respublikası Dövlət Vergi Xidmətinin mətbuat xidməti***

## Kross qaçışı üzrə çempionat keçirilib




Şəkidə kross qaçışı üzrə ölkə payız çempionatı keçirilib. Gənclər və İdman Nazirliyi və Azərbaycan Atletika Federasiyasının təşkilatçılığı ilə baş tutan yarışda paytaxt təmsilçiləri ilə yanaşı, Gəncə, Naxçıvan, Şəki, Bərdə, İsmayıllı, Xızı, Qax, Zaqatala, Balakən, Qəbələ, Oğuz və Naftalandan 200-ə yaxın atlet iştirak edib.

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin dəstəyi ilə məşqçi Samil Hüseynov və 4 idmançımız yarışda iştirak etmək imkanı qazanıb. Təmsilçilərimizdən ikisi mükafatçılar sırasına düşüb.

4 kilometr məsafədə yarışan Aysu Abbasova bütün rəqiblərini geridə qoyaraq çempionluq sevinci yaşayıb. Aysuya bu məsafəni qət etmək üçün 19 dəqiqə 9 saniyə yetərli olub. Əmrah Nağıyev isə 10 kilometr məsafədə mübarizə aparıb. İdmançı finişə qədər 37 dəqiqə 32 saniyə vaxt sərf edib və nəticədə, ikinci yerə sahib çıxıb.

Qeyd edək ki, adıçəkilən idmançılar il ərzində iştirak etdikləri bütün ölkə çempionatlarında mükafatçı olmağı bacarıblar.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

### İtmişdir

Babək rayonu, Nehrəm qəsəbə sakini İbrahimov Tofiq İsmayıl oğlunun adına olan JN-2160 inventar nömrəli 10300058 kodlu Torpağın mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Şərur rayon, Stansiya Daşarx kənd sakini Osmanov Nəbi Əmir oğlunun adına olan JN-008410 nömrəli torpaq sahəsinin plan və ölçüsü itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Yengicə kəndində yaşamış Bağırov Məmməd Əli oğlunun adına olan JN-138^A inventar nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Yengicə kənd sakini Rüstəmova Maman Məmmədəli qızının adına olan JN-34^A inventar nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Naxçıvan şəhəri, 20 Yanvar küçəsi 64-cü ünvanda Məmmədov Aqib Həsənalı oğluna məxsus fərdi yaşayış evinin 19 fevral 2019-cu il tarixli 3079 inventar nömrəli və 20 may 2019-cu il tarixli MH-0064585 nömrəli çıxarışı itdiyindən etibarsız sayılır.

***

Vəliyev Orxan Fərman oğlunun adına olan AD-0057646 seriya nömrəli müddətdən artıq həqiqi hərbi xidməti, hərbi qulluqçusunun hərbi vəsiqəsi itdiyindən etibarsız sayılır.

***

Babək rayon Nehrəm qəsəbə sakini Məmmədov Qulamhüseyn Hüseyn oğlunun adına olan 2817 nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Muxtar Məmmədov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 622